İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

# Misra-misra

(şeirlər)

İLQAR FƏHMİ

İmzalar
Nəşriyyat

Buraxılışa məsul: Nurman TARİQ

Redaktor: Amin SÜKUT

Korrektor: Turac ELDARQIZI

Bədii və texniki tərtibat: İsmayıl SÜLEYMANLI

Üz qabığının dizaynı: Azər ƏSGƏRZADƏ

**İlqar Fəhmi**
**MİSRA-MİSRA**

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2018, 128 səh.

**© İlqar Fəhmi / 2018**
**© Parlaq İmzalar MMC / 2018**

Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 65
Müasir Azərbaycan Ədəbiyyatı | 1

ISBN 978-9952-8338-9-8

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
fb.com/parlaqimzalar
0552595972 / 0552597259

# Mündəricat


Yeni əruz gəzişmələri ________________________ 7

Heca və sərbəst şeirlər _____________________ 39

Neoklassik əruz ____________________________ 51

Klassik əruz: köhnə qəzəllərdən seçmələr _____ 91

Dördlüklər ________________________________ 121

# YENİ ƏRUZ GƏZİŞMƏLƏRİ

(2017)

### *Sənli saatlar*

Tökülür sənli saatlar o ömürdən, bu ömürdən
Əyilib qaldıran olmur onu yerdən, bunu yerdən,

Evimə dərd girir hər gün, o başından, bu başından
Gözümə kölgə salırsan, o maşından, bu maşından.

Səni sakitcə soruşdum o yağışdan, bu yağışdan
Saçının ətrini aldım o balışdan, bu balışdan.

Süzülür sel kimi yaşlar o gözündən, bu gözündən
Səni hicran öpür hər gün o üzündən, bu üzündən.

Bezmişəm sənsiz həyatın o adından, bu adından
Zərrə-zərrə səni yığdım o qadından, bu qadından.

Tökülür sənli saatlar o ömürdən, bu ömürdən
Əyilib qaldıran olmur onu yerdən, bunu yerdən…

## *Ağlayan yağışa*

Gözünün yaşını tökmə, bu soyuq ahı yağışdır,
Bu bulud süni buluddur, bu yağış saxta yağışdır.

Dünənin qəhqəhəsiylə, bu günün naləsi eyni,
Gülüşün ağlamağınla, arası bircə qarışdır.
Məni yorma, sənə qurban,
Bu yağış saxta yağışdır...

Həyəcanla dolu sözlər, bu tərəddüd dolu gözlər,
Üşüyən nəmli baxışlar, iti kirpikdəki yaşlar,
Mənə çoxdankı tanışdı
Daha yox təsiri qəlbə,
Bu yağış saxta yağışdı.

Necə ağlarsa buludlar, necə oynarsa umudlar,
Necə şimşək çaxar olsa, necə sellər axar olsa,
Soyuq olsun, ya da isti, nə olar, ağlama bəsdi.
Fərqi yox, yazdı, ya qışdı,
Nə qədər yağsa da, yağsın,
Bu yağış saxta yağışdı...
Bu yağış saxta yağışdı...

## *Gecə sərsəmləmələrindən...*

Günah içində ömrüm, əsən soyuq küləymiş,
Məqam gələr, deyərsən, ölüm nə yaxşı şeymiş...

Çəkən qəmi əzabi, bu sonsuz iztirabi,
Sınıq-sökük ürəymiş, ürək nə yaxşı şeymiş…

İnanmaz idim ey can, şirindi gözdəki qan,
Biləndə tami nəymiş, dedim nə yaxşı şeymiş...

Rəzalət içrə böylə, batıb gedəndə, söylə,
Qəza-qədər beləymiş, qədər nə yaxşı şeymiş...

Həyat yorubsa, heyhat, bürün ağa, uzan yat.
Kəfən deyil, bələkmiş, bələk nə yaxşı şeymiş...

## *Yay ekspressiyaları*

Ehtiyat et, sürüşüb düşmə qadın gözlərinə,
Ki qadın gözlərinin məhbəsi hədsiz nəm olur.

Elə məhbəsdi bu ki qaçmağa yox zərrə ümid,
Qapısı bir neçə qat, dər-divari möhkəm olur.

Elə məhbəsdi bu ki pəncərəsindən yaş axır,
Məhbusa verdiyisə qupquru dərdi-qəm olur.

Elə məhbəsdi bu ki zülməti bitməz bir ömür,
İşığın ömrü isə bircə nəfəs, bir dəm olur.

Elə məhbəsdi bu ki ağı da seçməz qaradan,
İstisi öldürücü, şaxtasısa məlhəm olur.

Elə məhbəsdi bu ki tək qalasan, ağlarsan,
Amma bir kəs də gələ qan tökülür, matəm olur.

Elə məhbəsdi bu ki təsvirinə söz çatmır,
Bura insan düşən, axır böyüyüb Adəm olur.

***Buz heykəl***

Məni küsdürmək asandır, məni ağlatmaq asan,
Məni çaşdırmaq asandır, məni aldatmaq asan,
Məni ləngitmək asandır, məni saxlatmaq asan,
... Mənim olmaq nə çətin.

Məni buzlatmaq asandır, məni dondurmaq asan,
Məni laxlatmaq asandır, məni sındırmaq asan
Məni göstərmək asandır, mənə əl vurmaq asan.
... Mənə çatmaq nə çətin.

Mənə zülm etmək asandır, məni incitmək asan,
Məni alçaltmaq asandır, məni əskiltmək asan,
Məni tərk etmək asandır, məni tərgitmək asan,
... Məni sevmək nə çətin.

***

Ağlama, ömrüm günüm, ağlamaq olmaz sənə...
Gözləri qan-yaş ilə bağlamaq olmaz sənə...

Hər nə qədər dərd ki var, indi gərək mən çəkim,
Ən kiçicik dərdi də, saxlamaq olmaz sənə...

Ruhuma bənzər bu çöl, sən də ki tənha ağac,
Əssə də hər gün külək, laxlamaq olmaz sənə.

Sakit axan çay təki sahilin hündür deyil,
Sel kimi birdən coşub çağlamaq olmaz sənə...

Yağma yağışlar kimi, yollarımı bağlama,
Fəhmiyə bax, ağlama, ağlamaq olmaz sənə.

## *Sərsəmləmə*

Səni atıb gedərdim,
Bir az şeir deyərdim,
Bir az balıq tutardım,
Bir az da nar yeyərdim...

Səni atıb gedərdim,
Gözümü bağlayardım,
Bir az rahatlanardım,
Bir az da ağlayardım...

Səni atıb gedərdim,
Səfeh-səfeh gülərdim,
Səni atıb gedərdim,
Atıb gedib ölərdim...

***

Səsində bir kədər var, yaman soyuqdu...
Buludlar od-alovda, duman soyuqdu...

Nə vaxtdı ki günəş yox, görünməyir ay-ulduz,
Adamların içi buz, zaman soyuqdu...

Donan məhəbbət içrə, yatıb qalıbsan, ey dil.
Deyən də yoxdu, “qafil, oyan” soyuqdu...

Kiçikləşib həqiqət, sığışdı bir bələkdə,
“Yəqin” əsir küləkdə, “Güman” soyuqdu...

Ürək yaman dəyişkən, dayanmayır yerində,
Bir an alov içində, bir an soyuqdu...

Təəccüb etmərəm heç, duam geri qayıtsa...
Minarə od da tutsa, azan soyuqdu...

Həyat budursa, Fəhmi, nə altı var, nə üstü,
Görən hayandı isti, hayan soyuqdu?

***

Sevgin bir həzin, cilvəli röya idi, getdi...
Tənhalığa bu ömrü düçar eylədi getdi...

Dönsən də, məni görməyəcəksən yolun üstə.
Ruhum səni on yeddi ömür gözlədi, getdi...

Gəlmişdi bu dünyaya ürək qəm yemək üçün
Ta hər nə qədər ki yeri vardı, yedi, getdi...

Könlüm quşunu bir daha axtarma, tapılmaz...
Sənsiz bir ölüm istədi, çox istədi, getdi.

Heç gəlməz idi Fəhmi cahana, sözü vardı,
Söz vermiş idi gəlməyə, gəldi, dedi, getdi...

*"Nostalji qəzəllər"dən*

### *Yorğun sevgi – Tünd qəhvə*

Xəyanət isti qəhvə soyutmaq olmur,
Həyatına dağılsa, qurutmaq olmur…

Kiçik də bir xətadan bulansa sevgi,
Böyük də ehtirasla durultmaq olmur.

İnam uşaq kimiymiş gözü yaşarsa,
Öpüb sığallamaqla ovutmaq olmur…

Sevən qadın nəfəsdi, bədən deyil ki…
Ömür keçir, nə atmaq, nə tutmaq olmur.

Bir an toxunsa ruha xəyanət ətri,
Yüz il, ”unut”, desən də, unutmaq olmur…
Unutmaq olmur…

***

Mən ki zülmət gecələrdə azıb itmiş kimiyəm,
Öz yanımdan da gözüm görməyib ötmüş kimiyəm.

Necə dərin yara vursan da, mənə ağrısı yox,
Yaramı özgə öpüşlərlə keyitmiş kimiyəm,

Demə, buzdur ürəyin, məndə ürəkdən yox əsər,
Onu bir isti xəyanətdə əritmiş kimiyəm.

Nəfəsimdə daha əvvəlki odu axtarma,
Baxma yanındayam, amma elə getmiş kimiyəm.

Əbədi musiqi yox, mən də sənin ömründə
Qəmli bir mahnı idim ki, daha bitmiş kimiyəm.

Olduğundan ki böyük zənn eləmişdim səni mən,
Ondan ötrü sənə dünyanı dar etmiş kimiyəm.

Söyləmə dərdini, Fəhmi, bilirəm hər şeyi mən,
Deməmişdən elə zənn eylə eşitmiş kimiyəm.

***

Gedirəm, gözlərimi bağla mənimçün bu gecə,
Yoxdu bir ağlayanım, ağla mənimçün bu gecə.

Soyuğam, öpmə üzümdən dodağın xəstələnər,
Gəl dəyiş yorğanı torpaqla mənimçün bu gecə.

Əcəl almış məni ağuşuna, yox fərqi daha
Qoca dünyanın oyuncaqla mənimçün bu gecə.

Qəmi təklikdə yedin hər gecə məndən gizlin,
Doymusansa, azacıq saxla mənimçün bu gecə.

Ağlayıb yolma saçın, yox, eləcə yas saxla
Səs-səmirsiz dəli olmaqla mənimçün bu gecə.

Fəhminin ömrü bitir, bir də uzat əllərini,
Son dəfə gözlərimi bağla mənimçün bu gecə.